# DANIŞDIR"

**lərsiniz? "Nə etdim?" dediyinizdə özünüzə cavabınız nə oldu?**

-Yaxın çevrəm çox yaxşı bilir. Mən yazdıqlarım sarıdan içi çox rahat birisiyəm. Əslində, bilmək istəyirsinizsə, mən bu romanımı heç də əvvəllər yazdıqlarımdan yuxarı hesab eləmirəm. Amma alındığına inanıram.

**- Sonradan nələrisə dəyişdinizmi?**

- Dəyişdim, əsər çox sərt idi, bir qədər də qaba idi. Oxuyub fikir bildirən dostlar, əsasən də Mətanət Vahidin, Südabə Ağabalayevanin yanaşması məni redaktəyə məcbur etdi... Düşünürəm ki, haqlı iradlardı, əsərin xeyrinə oldu, sağ olsunlar.

**- Roman yeni kitabınıza daxil edilib, yaxın günlərdə təqdim olunacaq. Siz, müəllif olaraqdan, oxucularınıza "Qarğa marşrutu"nda nəyin hekayətini yazdığınızı bir neçə cümləylə necə çatdırmaq istərdiniz?**

- Simanın dili ilə desək, gündüz qaranlıq quyunun dibindən baxanda göy üzündə ulduzlar görünür... Əslində, ora enməyi təbliğ etmirəm. Həyatda hərənin öz seçimi var. Deyərdim ki, sadəcə quyuların dibinə daş atmasınlar, orada nihatlar var və onları yaralaya bilərlər. "Qarğa marşrutu" sadəcə insanları duyğusallığa çağırır, başqa heç nəyə...

**- Nə gözəl ifadə etdiniz: "Quyulara daş atmasınlar, orda nihatlar var və onları yaralaya bilərlər".**

- Bu daha çox şair ifadəsidi...

**- Əslində, mən sizi elə şair kimi tanıyırdım.. Elə bu günlərdə yenidən xeyli şeirinizi oxudum. Necə oldu nəsrə keçdiniz?**

- Belə alındı...

**- Maraqlıdır, sizin kimi bir şairin roman yazması nə deməkdir?**

- Bilmirəm şairin roman yazması nə deməkdi. Amma bu, bir çoxlarını qıcıqlandırır... Məsələ mətnin necə alınmasından-filandan getmir, sadəcə, bəzi yazıçılar həzm edə bilmir ki, Zahid nəsr yazır. Olsun. Amma mən o qələm adamlarına şeir yazmağı arzulayıram. Qoy görsünlər sözün fırtınasıyla oynamaq necə olur, hansı yaşantılara başa gəlir...

**- Əlahəzrət tənqidlə aranız necədir?**

- Həəə... Hələ ki, necə deyərlər, romanlarımı "yıxıb-sürüyən" olmayıb. Ədəbi saytlarda, "Ədəbiyyat qəzeti"ndə, "Azərbaycan" jurnalında "Dərdin sarı çəpkəni", "Kül" romanlarım haqda yazılar gedib, müzakirələr, təhlillər aparılıb. İnanıram ki, "Qarğa marşrutu" da diqqətdən kənarda qalmayacaq. Amma yeri gəlmişkən, umduğum bəzi tənqidçilər var ki, Zahid Sarıtorpaq imzasına rast gələndə gözlərini bərk-bərk yummağa üstünlük verirlər. Bu, özümə də qəribə gəlir, yəni cərəyan vuracaq? Sonra da düşünürəm ki, elə yazmasalar yaxşıdı. Vallah, düşər-düşməzi olar. Mənə yox, özlərinə... Mənim mətnlərimin məqsədli "təhlillərə" ehtiyacı yoxdu.

**- Deyirsiniz yəni "fırtınayla oynamasınlar"?**

- Təxminən elədi...

**- "Su" "Qanı" təmizləyəcəkmi?**

- Mən əksini deyərdim, "QAN"-ın "SU"-yu yuya bilib-bilməməsi əbədi bir çarpışmadı və bunu bir əsərin paradiqmasıyla sübut etmək olmaz...

**- Yəni əslində, heç zaman heç nə bilinmir...**



- Hə, bir şeirimdə demişəm: "Heç nə bilinmir, heç nə... adamlar gedir, ağaclar qalır, ağaclar gedir, quşlar qalır, ya da elə əksinə..."

**- Bazar əsərdə bütöv bir mühitdir. İnsanların bütün həyatı burda keçir. Hətta bazar sonrası həyatları da bazarla bağlıdır. Burada dostlaşır, burada düşmən qazanır, sevir, qohum olur, borc verir, borc alır, bir-birinin xəstəsinə baş çəkməyə gedirlər... Amma digər şeylər var, evinə su calanan bələdiyyə sədrindən tutmuş diplomlu hamballara, hərbi xidməti ənənəvi "həll edən"gənclərə kimi... Bu nədir, nələrinsə düz getməməsinin, düzgün qurulmayan yuxarı-aşağı münasibətlərinin bütöv ölkəni bazara çevirə biləcəyi qorxusumu? Müəllif həm də vətəndaş narahatlığını ifadə etməlidirmi əsərlərində?**

- Mən belə düşünürəm ki, mətn hansı postulatda təqdim edilməsindən asılı olmayaraq - istər modernizm, istər postmodernizm, istərsə də realizm və ya magik-realizm olsun - ictimai şüura, sosial obyektivliyə oynamalıdı, təbii ki insan psixologiyasının çeşidli şəkildə "xəlbirlənməsi" vasitəsilə. Bunu da unutmayaq ki, dünyanın özü nizamsız bir Can Bazarıdı. Hansı cəmiyyətdə, hansı quruluşda hər şey qaydasındadı ki? Xoşbəxt həyat uğrunda istər bazar olsun, istər də ali müəssisələr, mübarizə gedir, gedəcək də. Sadəcə, tale kiməsə suyun üzünü, kiməsə qanın laxtasını, kiməsə də qarğaların vecsiz, tənbəl, nizamsız marşrutunu qismət edir, yazıçının da borcu xam torpaqlar kimi ucu-bucağı görünməyən bu boşluğa gücü çatdıqca söz toxumu səpməkdi...

Bədii söz toxumu...

**- Zahid bəy, vulkan püskürəcəkmi?**

- Suyun üzüylə yerimək mümkün olsaydı, Nihat uşaqlıq eləyib qorxudan geri qanrılıb qaçmasaydı, lemminqlər yuvalarını sevib hicrətə yürüş etməsəydilər belə, yenə vulkan barədə dəqiq söz demək mümkün olmazdı... Əsərdəkilərə bazardan çox-çox aralıda püskürən vulkandan qorxmaq lazım deyil, təbii...

**- Qəddar cavabdır əslində... Amma nə edəsən?..**

- Əslindəsə "Qarğa marşrutu" ilə müqayisədə çox yumşaq cavabdır...

*Söhbətləşdi:*

Hədiyyə ŞƏFAQƏT

Ədəbiyyat qəzeti.- 2017.- 27 may.- S. 31.